UOT 94(479.24)
DOI: https://doi.org/10.30546/25194011.2026.201.2.4.5047

# QAFQAZ ALBANİYASINDA XRİSTİANLIĞIN YAYILMASI VƏ DİNİ KEÇİD PROSESLƏRİ

**AİDA AFİQ QIZI TEYMUROVA**
*AMEA-nın A.A.Bakıxanov adına*
*Tarix və Etnologiya İnstitutunun doktorantı*
*Bakı ş., İstiqlaliyyət küç., 30. AZ1001*
*E-mail: aida.teymurova99@mail.ru*
*Orcid id: 0009-0002-0075-6871*

**XÜLASƏ**

Məqalədə Qafqaz Albaniyasında mövcud olmuş dini inanclar və dinlərlə bağlı məsələlər araşdırılır. Qeyd olunur ki, Qafqaz Albaniyasının əhalisi ilkin dövrlərdə bütpərəst və astral inanclara etiqad etmiş, eramızın I əsrindən etibarən isə ölkədə xristianlıq yayılmağa başlamışdır. Lakin xristianlıq heç vaxt ümumi və vahid dinə çevrilməmişdir. VIII əsrdən İslam üstün mövqe qazanmışdır. Məqalədə qeyd olunan dini inancların yayılma səbəbləri və bu dinlərin təsiri nəticəsində ölkədə yaranmış vəziyyət araşdırılır. Müxtəlif dövrlərdə fərqli dini inancların mövcudluğunun müsbət və mənfi tərəfləri təhlil edilir. Həmçinin vurğulanır ki, bu gün də Azərbaycanda əsas din olaraq qalan İslam ölkədə yaşayan müxtəlif etnik qrupların birliyinin təmin olunmasında mühüm rol oynamışdır.

**Açar sözlər:** *Qafqaz Albaniyası, xristianlıq, islam, bütpərəstlik, din, məbəd.*

## Giriş

Qafqaz Albaniyasında dini inkişaf prosesləri bölgənin sosial, siyasi və mədəni tarixinin mühüm bir hissəsini təşkil edir. Bu ərazi müxtəlif dini inancların qarşılaşdığı və bir-birinə təsir göstərdiyi bir region olmuşdur. Tədqiqatların göstərdiyi kimi Qafqaz Albaniyasının erkən dövründə yerli əhali müxtəlif astral dinlərə, o cümlədən bütpərəstlik və zərdüştlük kimi inanclara etiqad edirdi.

I əsrdən başlayaraq Qafqaz Albaniyasında xristianlıq tədricən yayılmağa və xüsusilə yerli əyanlar və feodal təbəqələr arasında qəbul edilməyə başlanmışdır. Bu dini keçid həm yerli mədəniyyətin, həm də sosial quruluşun formalaşmasında mühüm rol oynamışdır.

Bununla belə, xristianlığın Qafqaz Albaniyasında yayılması o dövrün dini mozaikasına tam uyğun gəlməyib. Xristianlıq manixeyçilik, zərdüştlük və bütpərəstlik kimi inanclarla qarşı-qarşıya gəlmiş, bu da yeni dinin yayılmasında müəyyən maneələr yaratmışdır. Hərçənd ki, xristianlığın qəbul olunması ilə Qafqaz Albaniyası əhalisinin dini kimliyi tədricən formalaşmağa başlamış, bu, xüsusilə feodal münasibətlərinin inkişafına müsbət təsir göstərmişdir.

VII əsrin ortalarından sonra İslamın gəlişi ilə bölgədə yeni dini dəyişikliklər baş vermişdir. Bu dövr, həmçinin xalqın etnogenezində yeni bir mərhələnin başlanğıcı olmuşdur. Məqalədə bu dini keçid proseslərinin xronologiyası, qarşılıqlı təsirləri tədqiq edilmiş, həmçinin Qafqaz Albaniyasının tarixindəki dinamik dəyişikliklərin əhəmiyyəti vurğulanmışdır. Qafqaz Albaniyasında erkən orta əsrlərdə din digər ölkələrdəki kimi siyasi quruluşun ayrılmaz parçası kimi inkişaf etməyə başlamışdır. Ona görə də yazılı qaynaqlardakı dini və siyasi tarixə aid olan materiallar demək olar ki eynidir. Qafqaz Albaniyasında mövcud olmuş dini görüşlər və dini inanclar məsələsi İ.İ. Meşaninov, K.V. Trever, Ə.K. Ələkbərov, İ.P. Petruşevski, Z.İ. Yampolski, Z.M. Bünyadov, R.B. Göyüşov, T.M. Məmmədov, F.C. Məmmədova, N.M. Vəlixanlı, T. Əliyev, R.Ə. Ağayev, N. Müseyibli, M. Paşayeva, Ü. Hacıyeva, R.M. Məlikov, İ.M. Vahidov, M.C. Xəlilov və N.Ə. Alışov tərəfindən ümumilikdə araşdırılmışdır.

## Qafqaz Albaniyasında erkən dini inanc və təsəvvürlər

Xristianlıq və zərdüştlik qəbul edilənə qədərki dövrdə Qafqaz Abaniyasında torpaq, od, su, günəş və s. təbiət qüvvələri müqəddəs hesab edilmişdir, onlara sitayiş edilmişdir [ 28, s.40-41; 27, s.17-19; 24, s.116]. Qafqaz Albaniyasında fərqli şəkillərdə ilkin dini görüşlər və təsəvvürlər mövcud olmuşdur. Aya və Günəşə sitayişin izləri Azərbaycanın qədim dövr qəbir abidələrinin quruluşunda, keramika məmulatları üzərindəki ornamentlərdə, qayaüstü rəsmlərdə, bəzək əşyalarının tərtibatında əks olunmuşdur [12, s.23]. Qafqaz Albaniyasında əhali tərəfindən müxtəlif heyvanlara, ağaclara, quşlara, bitkilərə sitayiş edilmişdir. Heyvanat və bitkilər aləmi müqəddəsləşdirilmişdir [28, s.40-41; 25, c.I, s.242; 24, s.116]. Sadaladığımız dini görüşlər xristianlıq, atəşpərəstlik dövrlərində, o cümlədən islam dövründə də öz mövcudluğunu saxlamışdır. Hətta hazırkı dövrdə də həmin dini görüşlərin bəzi qalıqları mövcuddur [24, s.11].

Erkən orta əsr müəlliflərindən olan Aqafanqel, Yeqişenin və Koryun məlumatlarından belə qənaətə gəlmək olar ki, xristianlıq qəbul edilənədək Qafqaz Albaniyasında bütpərəstliyə etiqad edən bir çox insan olmuşdur.Qafqaz Albaniyasında bütpərəstliyə dair məbədlərdə kahinlər fəaliyyət göstərmişdir. Sadaladığımız tarixçilərin məlumatları Musa Kalankatlı tərəfindən də təsdiq edilmişdir. O qeyd etmişdir

ki, bütpərəstlik Qafqaz Albaniyasında geniş şəkildə mövcud olmuşdur [ 23, s.47].

Qafqaz Albaniyasında bütpərəstliyin mövcud olması və bu dinə dair məbədlərin olmasını arxeoloji tədqiqatlar da sübut etmişdir. Arxeoloji qazıntılar zamanı bir sıra regionlarımızdan məbəd qalıqları tapılmışdır [20, s.19-20; 21, s.20; 9, s.80, 84]. Z.İ. Yampolski Qafqaz Albaniyasındakı məbəd təsərrüfatından və məbədlərdən bəhs edən monoqrafiyasında qeyd etmişdir ki, məbədlərə kahinlər rəhbərlik etmişdir, məbəd qulları isə məbədlərdə təsərrüfat işləri ilə məşğul olmuşdur. Məbədlərin geniş təsərrüfat əraziləri olmuşdur. Qafqaz Albaniyasının siyasi və ictimai sahələrində məbədlər çox mühüm rol oynamışdır [28, s.39-41, 88-93].

Erkən orta əsr Alban tarixçisi Musa Kalankatlı tərəfindən qeyd edilmişdir ki, Qafqaz Albaniyasında erkən orta əsrlər dövründə sehrbazlar, cadugərlər, kahinlər mövcud olmuşdur. Albaniyada hətta xristianlığın qəbulundan sonra da bu sektalar mövcud olmuşdur [11, s.165]. Onlar qurbankəsmə ayinləri həyata keçirmişdir. Qurbankəsmə ayinləri hansı ərazilərdə həyata keçirilirdisə həmin yerlərdə məbədlər, bütxanalar, qurbangahlar tikilirdi. Bunlar daha çox həmişəyaşıl ərazilərdə, qalın meşələrdə, hündür bağlarda inşa edilmişdir [24, s.18].

Qurbankəsmə ayinləri zamanı heyvanları qızardaraq ilk öncə dərilərini soyurdular, daha sonra isə isə içlərini otla, samanla dolduraraq yüksək yerlərdən asırdılar. İnsanı qurbankəsmə zamanı isə onları ya zəhərləyərək, ya da dərisini soyaraq öldürürdülər [26, s.151; 28, s.195]. Qurbankəsmə mərasimlərinin Qafqaz Albaniyasında mövcud olmasını arxeoloji tədqiqatlar və tapıntılar da sübut edir [17, s.91-94; 16, s.245; 19, s.86-102].

**Qafqaz Albaniyasında xristianlığın yayılması prosesi**

Qafqaz Albaniyasında xristianlığın yayılması və dövlət dini olaraq qəbulu I–IV əsrlər dövrünə aiddir [2, s.436]. Feodal münasibətlərinin təşəkkülü dövründə dini baxışlar ictimai həyatın müxtəlif sahələrinə təsir göstərməyə başlayırdı. II əsrdə Qafqaz Albaniyasında xristian missionerlər tərəfindən xristianlıq təbliğ edilirdi, əhalinin bir çox hissəsi bu dini qəbul etməyə başlamışdı [23, s.48]. Xristianlığın yayılmasına ən çox təşəbbüs göstərən müqəddəs Faddeyin tələbəsi Yelisey olmuşdur. Yelisey xristianlığı Qafqaz Albaniyası ərazisində yaymağa çalışarkən onun tələbələrindən bir nəfər şəhid olmuşdur. Ancaq Yelisey bütün bunlara rəğmən, Gis bölgəsinə gəlmiş və bu ərazidə kilsə inşa etmişdir. Müqəddəs Yelisey daha sonra Zərqun dərəsi adlanan əraziyə gəlmişdir, lakin burada bütpərəstlər tərəfindən qətlə yetirilmişdir [23, s.48].

Qafqaz ərazisi erkən orta əsrlər dövründə iki güclü dövlət olan Sasanilər və Bizans arasında mübarizə meydanı olmuşdur. Qafqazın bütün xalqları, həmçinin Qafqaz Albaniyası da həmin mübarizənin tərkib hissəsinə çevrilmişdir. Həmin dövrdə Bizansda xristianlıq hökm sürürdü. Bizans imperiyası Qafqaz Albaniyasında diofizit yönümlü xristianlığın yayılmasında mühüm rol oynamışdır. Bizans imperatorları Qafqaz ərazisində özlərinin təsirini gücləndirmək üçün Qafqaz Albaniyasına mütəmadi olaraq missionerlər yollayırdılar. Qafqaz Albaniyasında IV əsrdə şah Urnayr, o cümlədən zadəganlar və feodallar tərəfindən xristianlıq rəsmi olaraq qəbul edildi. Daha sonra isə artıq məcburi şəkildə xristian dini Qafqaz Albaniyası əhalisinə qəbul etdirilməyə başlandı. Bu zaman Qafqaz Albaniyasında xristianlıq zadəganlar və feodallar tərəfindən təbliğ edilirdi və yayılırdı. Xristianlıq təbliğ edilərkən və yayılarkən Qafqaz Albaniyasında mövcud olan manixeyçilik, zərdüştlik, həmçinin əhalinin aşağı təbəqələrinin etiqad etdiyi dini baxışlar ilə mübarizə aparmalı olurdu [ 25, s.50].

Xristianlıq Qafqaz Albaniyası ərazisində yayılmağa başladıqdan sonra bütpərəstliyə dair məbədlər sökülməyə başlandı. Həmin məbədlərdəki kahinlər isə məcburi şəkildə xristian dinini qəbul etməli oldular [16, s.51]. Qafqaz Albaniyasında xristianlığın genişlənməsində Alban katolikosları və Alban şahları böyük rol oynamışdır. Alban katolikosları, şahları ölkədə məbədlər, kilsələr, monastırlar tikdirirdilər. İnşa edilən bu tikililər əsasən xristianlıqdan əvvəlki dini tikililərin yerlərində mövcud olmuşdur [28, s.19, 41; 26, s.297]. Qafqaz Albaniyası ərazisində, əsasən də Böyük və Kiçik Qafqazın ətəklərində xristianlıqla bağlı çoxsaylı dini memarlıq tikililəri mövcud olmuşdur. Erkən orta əsr mənbələri Yeqişe, F.Buzand, Gevond, Koryun, Ayrivanesi göstərir ki, Qafqaz Albaniyasında erkən orta əsrlər dövründə kilsələr tikilmişdir [23, s.69].

Ölkəmizdə xristian dininin yayılmağa başlamasının İsa Məsihin həvariləri olan Varfolomey ilə Faddeyin, o cümlədən Faddeyin tələbələri Mar və Müqəddəs Yeliseyin adı ilə əlaqədar olması həm Alban Apostol kilsəsinin qədim olmasını, həm də bu kilsənin bilavasitə İsa Məsihin həvariləri tərəfindən inşa edildiyini göstərir. Həmin dövr, yəni Qafqaz Albaniyasında xristian dininin yayılmasının ilk mərhələsi həvari, süryanipərəst adlandırılmışdır. Bu dövr IV əsrədək davam etmişdir və xristian dini həmin dövrdə arami-süryanicə təbliğ olunmuşdur [7, s.25].

**Ermənilərin Alban kilsə irsini mənimsəmə cəhdləri və tarixi həqiqətlər**

Alban dini tikililəri ermənilərə məxsus dini abidələrdən tamamilə fərqlidir. Alban memarlığında

individual üslub mövcuddur. Məsələn, Alban məbədlərində ilkin dövrlərdə zəng qüllələri məbədin kənarında mövcud olmuşdur, lakin bu cəhət erməni təsiri altında dəyişdirilmişdir və erməni memarlığı olaraq təqdim edilmişdir. Erməniləşdirmə prosesi zamanı əsasən də xaçlardan vasitə kimi istifadə edilmişdir. Xaç simvolu hansı məbədin üzərində mövcuddursa, həmin abidələr erməni məbədləri kimi təqdim edilmişdir, lakin xaçın tarixi ölkəmizdə çox qədimlərə dayanır. E.ə. XIII–XII əsrlərdə xaç işıq rəmzi hesab edilmişdir. Həmin dövrə dair Borsunlu, Gəncəçay tikililərində xaç təsvirləri mövcuddur. Borsunlu kurqanından aşkar edilmiş boşqabların üzərində xaç simvolları mövcud olmuşdur. Sarıçoban kurqanı qəbirləri isə xaç formasındadır. Bunlar isə onu deməyə əsas verir ki, xaçın tarixi xristianlıqdan əvvələ dayanır. Həmin dövrlərdə xaç fərqli mənada istifadə edilmişdir. Həmin məbədlərin isə ermənilərlə heç bir əlaqəsi yoxdur [7, s.72]. Ermənilər öz təcavüzkar planlarına və əməllərinə haqq qazandırmaqdan ötrü qeyd edirlər ki, Alban məbədləri ermənilərə məxsus abidələrdir. Hətta torpaqlarımız işğal altında olduğu dövrlərdə ermənilər tərəfindən dövriyyəyə buraxılmış pulların üzərində də alban abidələrinin təsviri mövcud olmuşdur. Əslində isə ermənilərin qədim Alban mədəni, tarixi irsi ilə heç bir əlaqəsi yoxdur. Onlar Qafqaza gəlmə xalqdırlar [14, s.5].

Cənubi Qafqaz, o cümlədən Azərbaycan xaç işarəsinin yayıldığı ilk ərazilərdəndir [5, s.47]. Qafqaz Albaniyası ərazisində aşkar edilmiş xaçları üç tipə bölmək olar: uzun xətli və yarımdairəvi uclu xaçlar, bərabərtərəfli xaçlar və üçləçək uclu xaçlar. Ucu üçləçəkli olan xaçlar Müqəddəs Yelisey kilsəsindəki qəbir daşları üzərində mövcuddur. Bərabərtərəfli və yarımdairəvi uclu xaçlara isə udilərin məişət əşyaları və evlərində rast gəlmək mümkündür [8, s.114].

Alban xaçı ermənilərə məxsus xaç simvollarından tamamilə fərqlənir. Bu isə Qafqaz Albaniyasında xristian dini yayılmazdan əvvəlki dini görüşləri göstərir. Hazırkı dövrdə udi icmalarının məskunlaşdığı ərazilərdə aşkar edilmiş xristian abidələri, qəbirləri və s. tapıntılar hazırkı Azərbaycan ərazisində qədim alban irsinin göstəricisidir. Buradan belə qənaətə gəlmək olar ki, Alban məbədləri memarlıq üslubları, xaç təsvirləri, dini başçıların geyimləri cəhətdən erməni məbədlərindən fərqlənirlər. Bunlarla yanaşı araşdırmalar onu göstərir ki, Alban Apostol kilsəsində ayinlər, kilsə təşkilatı daha çox inkişaf etmişdir [8, s.114].

Alban Apostol kilsəsi ilk üç Beynəlxalq kilsə məclisinin qərarlarını tanımışdır. Bunlar I Nikeya, I Konstantinopolis, I Efes kilsə məclisləri olmuşdur. 506-cı ildə isə Dəbil kilsə məclisi keçirilmişdir. Burada Xalkedon kilsə məclisinin qərarları Alban kilsəsi, eləcə də erməni və gürcü kilsələri tərəfindən tanınmamışdır. Monofizitlik əsas götürülmüşdür. Belə ki, Alban kilsəsi monofizit kilsəyə çevrilmişdir [8, s.114].

Alban kilsəsinin rəhbərlərini Qüds Patriarxatlığı təsdiq edirdi. Bu ənənə Maarifçi Qriqoriyədək mövcud olmuşdur. Sonrakı dövrdə isə artıq Alban Apostol kilsə rəhbərləri Alban yepiskopları tərəfindən təsdiqlənmişdir. Bu isə alban kilsəsinin Maarifçi Qriqoridən sonra müstəqil, yəni avtokefal olmasının göstəricisidir. Alban kilsəsi iki səbəbdən avtokefal olmuşdur. Bunlardan birincisi həvari mənşəli olması idi. İkinci səbəb isə Qafqaz Albaniyasının Şərqi Romadan asılı olmaması, yəni Qafqaz Albaniyasının siyasi statusu olmuşdur [7, s.26].

Alban kilsəsinin strukturu IV əsrdə formalaşır. 451-ci ildə baş tutmuş Xalkedon kilsə məclisindən sonra isə alban kilsəsinin hüquqi vəziyyəti müəyyənləşmişdir. Xalkedon kilsə məclisindən sonra bu kilsənin rəhbərləri Patriarx, VI əsrin II yarısından etibarən isə Albaniya və Balasakanın böyük katolikosu adlandırılmağa başlanmışdır. Katolikosun rəhbərliyində ruhani institutu mövcud olmuşdur. Qafqaz Albaniyası bütünlükdə yepiskopluqlara ayrılmışdı. V–VIII yüzilliklərdə Qafqaz Albaniyasında on iki yepiskopluq mövcud olmuşdur. Bu yepiskopluqlara yepiskoplar rəhbərlik edirdi. Yepiskoplar ali ruhani təbəqə hesab edilirdi və çoxsaylı imtiyazlara malik idilər. Yepiskoplarla yanaşı alban kilsəsində ruhani təbəqəyə həmçinin keşişlər, ilahiyyatçılar və rahiblər də aid idi [7, s.36].

Alban kilsəsinin mövqeyi VII əsrdə Ərəb xilafəti tərəfindən sarsıdılır. Həmin dövrdə Qafqaz ərazisi Bizans və xilafət arasında mübarizə meydanına çevrilmişdir. İlkin ərəb işğalları zamanı Alban hökmdarı Cavanşirin səylərinin nəticəsi olaraq Qafqaz Albaniyasının daxili müstəqilliyi mövcudluğunu saxlaya bilmişdir. Ancaq Cavanşir vəfat edəndən sonra baş verən proseslər Qafqaz Albaniyasının süqut etməsinə, o cümlədən alban kilsəsinin də zəifləməsinə səbəb olmuşdur. Beləliklə, 704-cü ildə Girdiman yepiskopu I Nerses Bakur I Varaz-Trdatın yoldaşı Spramanın dəstəyi ilə Alban katolikosu olmuşdur. I Nerses Bakur Alban hökmdarı tərəfindən həyata keçirilən Xilafətlə müttəfiqlik siyasətini dəstəkləmir. O Bizansla yaxınlaşmağa çalışırdı və diofizitliyə etiqad etməyə başlamışdı. Ancaq knyaz Şeroy və bir sıra feodallar tərəfindən bu siyasətə mane olundu. Çünki onlar xalkedonçuluğa qarşı düşmən mövqeyində idilər [7, s.38-39].

Erməni katolikosu İlya alban kilsəsini öz nəzarətinə keçirmək məqsədilə Xəlifə Əbdül Malikə alban kilsəsindən çuğulçu məktub yazmışdı. Həmin məktubu qəbul etdikdən sonra Xəlifə əmr etdi ki, Bərdədə dini toplantı keçirilsin. Həmin məclis zamanı Al-

ban hökmdarının yoldaşı Spramanı qalaya saldılar. Nerses Bakur isə mürtəd elan edildi. Erməni kilsəsi artıq alban kilsəsinə nəzarət etməyə başladı. Həmçinin bu məclis zamanı Xəlifə diofizit Alban əyanlarının öldürülməsini əmr etmişdir. Bu isə onu deməyə əsas verir ki, Alban feodallarının bir çoxu diofizit olmuşdur, baxmayaraq ki, alban kilsəsi monofizit idi. Həmin feodallar Bizansa tərəf idilər. Xəlifə erməni kilsəsinin tərəfini saxlayaraq iki məqsədə çatmışdır. Birinci məqsəd Bizansın Zaqafqaziyada maraqlarının sarsılması, ikinci məqsəd isə qriqoriyan din xadimlərindən istifadə edərək öz istəklərini həyata keçirmək idi [6, s.78].

Belə ki, erməni katolikosu ərəblərin köməyi sayəsində Alban katolikosluğuna nəzarət etməyə başlamışdır. Erməni kilsəsi və Alban kilsəsi arasında düşmənçilik əslində daha əvvələ aiddir. Bu düşmənçiliyin səbəbi erməni qriqoryan kilsəsinin özünü üstün və daha qədim kilsə adlandırması idi. Elə bu səbəbdən də ərəblərin, o cümlədən Sasanilərin dəstəyi sayəsində istəyirdi ki, Alban din xadimlərinin müstəqilliklərini fitnə-fəsadla əllərindən alsın. Əslində isə alban kilsəsi daha qədimdir. Bunu tarixə nəzər yetirdikdə aydın şəkildə görmək mümkündür. Şəkidə Kiş kəndində Müqəddəs Yeliseyin Qafqazda ilk kilsənin əsasının qoyması bu faktı sübut edir [10, s.38].

Albanlar erməniləşdirilmə prosesinə kəskin şəkildə müqavimət göstərmişdir. Alban və erməni din xadimlərinin mübarizəsi davam etmişdir. XI, XIII və XIV yüzilliklərdə Alban yepiskopları tərəfindən müstəqil olaraq kilsə rəhbərləri seçilmişdir. Çünki bu zaman erməni kilsəsi güclü deyildi və Alban yepiskopları kilsə rəhbərlərini seçəndə artıq erməni katolikosluğuna xəbər vermirdilər [6, s.79].

Alban katolikosluğu IX–XII əsrlərdə tənəzzül etməyə başlamışdır. Bu dövr siyasi hərc-mərclik dövrü olmuşdur. Bütün bunlara rəğmən, uzun bir dövr ərzində alban kilsəsi öz mövcudluğunu saxlamağa çalışmışdır. Alban kilsəsinin fəaliyyəti dövründə aşağıdakı ərazilər mərkəz olmuşdur:

1. Çola – ilk mərkəz
2. Partav (köhnə Bərdə) – VI–VIII əsrlər
3. Çarek-Xamşı – VIII–IX əsrlər
4. Xudavəng monastır kompleksi
5. Gəncəsər monastır kompleksi – 1511–1836-cı illər [6, s.79].

Beləliklə, Qafqaz Albaniyasının ərəblərin nəzarətinə keçməsi, İslam dininin qəbul etdirilməsi və Albaniyanın ləğv edilməsinin nəticəsi olaraq alban kilsəsinin mürəkkəb vəziyyətlə üzləşməsi, erməni kilsəsinin yaranmış bu şəraitdən istifadə etməsi və Alban kilsəsinə təzyiq göstərməyə başlaması Qafqaz Albaniyasında olduqca çətin şərait yaratdı. Lakin Alban Apostol kilsəsi və etnosu bu çətinliklərlə mübarizə aparmağa başlamışdır. Alban etnosu tarixi Albaniya ərazilərində, xüsusilə də IX–XIX əsrə qədər Sünik, Arsax, Şəki-Kambisena, Uti bölgələrində məskunlaşmışdır. Alban etnosu tərəfindən heç vaxt özlərinin əraziləri itirilməmişdir [30].

**İslamlaşma prosesinin başlanğıcı və ərazidə dini müxtəliflik**

İslam dini əksər ərazilərdə dinc yolla, bəzi ərazilərdə isə silah gücü ilə qəbul etdirilmişdir. Ərəb istilaları ərəfəsində, eləcə də Xilafət bərqərar olduğu ilk dövrlərdə Azərbaycanda məskunlaşan yerli əhalinin dini etiqadları müxtəlif idi. Bu dövrdə Azərbaycanda, o cümlədən qonşu ərazilərdə beş dini etiqadın daşıyıcıları yaşamışdır. Bunlar xristianlar, atəşpərəstlər, yəhudilər, sabiilər və çoxtanrılı bütpərəstlər olmuşdur [1, s.233-234]. Ərəb istilalarının əsas məqsədlərindən biri İslam dinini yaymaq idi. Bu ərəblər tərəfindən həm də cihad kimi qəbul edilirdi. Ərəblərin fikrincə, tabe etdikləri ərazilərdə "əhl əl-kitab" olan xristianlar və yəhudilər ya İslam dinini qəbul etməli, ya da can vergisi (cizyə) ödəyərək öz dinlərində qala bilərdilər [1, s.234-235]. Cizyə verməkdən imtina edənlər isə müsəlmanlarla savaşmalı olurdular. Sərhəd ərazilərdə yalnız müsəlmanlar məskunlaşırdılar. Burada isə əsas məqsəd sərhəd məntəqələrinin möhkəmləndirilməsi olmuşdur. İslam dinindən imtina edən yerli əhali isə kənar ərazilərdə məskunlaşdırılırdı. Həmin ərazilər rabat adlandırılırdı. Ərəblərin imzaladıqları sülh sazişlərində əhalinin din toxunulmazlığı, malı və canı əsas müddəa kimi qeyd edilirdi. Ərəblər işğal etdikləri yerlərdə əhalidən vergi alır, o cümlədən sülh müqaviləsi imzalayaraq digər əraziləri işğal etməyə davam edirdilər. Onlar geri dönəndə isə əgər əhali vergilərdən boyun qaçırardısa təkrarən hücum etməyə başlayırdılar. Mərzban İsfəndiyar ibn Fərruxzad da məğlub olaraq ərəblərlə sülh sazişi imzalamışdır. Daha sonra isə ərəblər tərəfindən Təbriz, Ərdəbil, Beyləqan, Naxçıvan, Şirvan, Bərdə, Arran və Muğan bölgəsi işğal edilmişdir. Ərəblər yeni əraziləri ələ keçirəndə ilk vaxtlar bu yerləri özlərinə məxsus idarə anlayışına uyğun olaraq idarə edirdilər Bu üsulun məqsədi həmin ərazilərdən vergi və mükəlləfiyyət əldə etmək və tabelikdə olan əhaliyə İslam dinini qəbul etdirmək idi [4, s.98]. Ərəblər bütün bu əraziləri tutduqdan sonra Dərbənd bölgəsinə qədər gəlib çatmışdılar. Ərəblər başa düşürdü ki, şimalda sərhədlər möhkəmləndirilməsə digər vilayətləri asılı hala sala bilməyəcəklər. Buna görə də Dərbənd bölgəsini ələ keçirmək ərəblər üçün bu vəziyyətdən çıxış yolu idi [16, s.18-19]. Şəhərin istehkamları ərəbləri heyran qoymuşdur. Dərbənd ərəblər tərəfindən Bab əl-Əbvab adlandırılmışdır. [29]. Ölkəmizdə əhalinin

islamlaşma prosesi 705-ci ildə ərəblərin Albaniyanı fəth etməsi ilə başlamışdır.

### Qafqaz Albaniyasının mədəni irsinin qorunması və bərpası

Qafqaz Albaniyasının dini, tarixi və mədəni irsi zamanla əhalinin əksəriyyətinin İslam dinini qəbul etməsi ilə müəyyən transformasiyalara məruz qalsa da, bu irsin unudulması və ya arxa plana keçməsi elmi baxımdan qəbuledilməzdir. Hazırkı mərhələdə Azərbaycan dövləti və elmi ictimaiyyət bu tarixi irsi sistemli şəkildə araşdırmaq, sənədləşdirmək və qorumaqla yanaşı, həm də bu irsin mənsubiyyətinə dair yanlış təsəvvürlərin aradan qaldırılmasına çalışır. 1836-cı ildə fəaliyyətinə xitam verilmiş alban kilsəsinin tarixi statusunun yenidən nəzərdən keçirilməsi və bəzi məbədlərin restavrasiyası istiqamətində görülən tədbirlər, həm mədəni irsin bərpasına, həm də regional tarixşünaslıqda obyektivliyin təmin olunmasına töhfə verməkdədir [15, s.10]. Qarabağ bölgəsində yerləşən mədəni irs nümunələri uzun əsrlər boyu qorunub saxlanılmış, lakin zamanla müxtəlif təhriflərə məruz qalmışdır. Bu abidələrin tədqiqi və bərpası, həm də regionun tarixindəki bir sıra az öyrənilmiş məqamların işıqlandırılmasına imkan verir. Tarixi mənbələrdə qeyd olunan bir sıra alban mənşəli məbədlərin müxtəlif dövrlərdə başqa mədəniyyətlərə mənsub kimi təqdim olunması hallarına rast gəlinir. Məsələn, Göy Mələkləri məbədi və Yerəruyk məbədi bir sıra mənbələrdə erməni memarlıq irsi kimi qeyd olunsa da, bu abidələrin memarlıq xüsusiyyətləri və yerləşdiyi ərazilərin etnoqrafik tarixi onların alban-türk mənşəli olmasını deməyə əsas verir [13, s.15].

### Nəticə

Arxeoloji və yazılı mənbələr onu deməyə əsas verir ki, Qafqaz Albaniyasında xristianlıq yayılmazdan əvvəl əhali astral dinlərə etiqad etmişdir. II əsrdən başlayaraq isə artıq Qafqaz Albaniyasında xristianlıq genişlənməyə başlamışdır. Əyanlar, şah, iri feodallar tərəfindən qəbul edilən xristianlıq Qafqaz Albaniyasında kütləvi şəkildə yayılaraq ümumxalq dini statusu qazana bilməmişdir. Çünki xristianlıq tədqiq etdiyimiz dövrdə Qafqaz Albaniyasında manixeyçilik, zərdüştlik, o cümlədən bütpərəstliklə mübarizə aparmalı olmuşdur. Bununla yanaşı xristianlığın Qafqaz Albaniyasında erkən orta əsrlər dövründə yayılması bölgənin mədəni və dini inkişafında mühüm mərhələ olmuşdur. Çünki bu proses feodal münasibətlərinin inkişaf etməsinə mane olan bütpərəstliyə qarşı idi. VII əsrin ortalarından etibarən isə Qafqaz Albaniyasında islam dini yayılmağa başlanmışdır. Bu proses zamanı vahid din ətrafında birləşərək ölkə vahid coğrafi məkana qatılmış, eləcə də xalqın etnogenezində yeni mərhələ başlanmışdır. Dini dəyişikliklər Qafqaz Albaniyasının siyasi və sosial strukturuna da təsir etmişdir. Xristianlıq və sonra islamın yayılması bölgədə yeni mədəniyyət və yazılı ənənələrin formalaşmasına təkan vermiş, əhalinin gündəlik həyatında və hüquqi münasibətlərində əks olunmuşdur. Bu da Qafqaz Albaniyasının tarixində etnik və dini mozaikliyin zənginləşməsinə səbəb olmuşdur.

### ƏDƏBİYYAT SİYAHISI:


1. *Ağayev R. Ərəb Xilafəti dövründə Azərbaycanın əhalisi. Bakı: "Turxan" NPB, 2017, 344 s.*
2. *Alışov N. Qafqaz Albaniyasının xristian abidələrinin tədqiqi Azərbaycan tarixşünaslığında // Tarix və onun problemləri, 2009, №1-2, s.436-440.*
3. *Aydınoğlu T. Azərbaycandakı Alban kilsələri necə "erməni kilsələri"nə çevrilmişdir? / "Xalq" qəz., Bakı, 2021, 20 may, s.8.*
4. *Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı: "Şərq-Qərb", 2007, 424 s.*
5. *Əliyev T. Xristianlığın simvolu xaç Alban mədəni irsində // Qafqaz Albaniyasının etno-mədəni irsi, 2022, № 3, s.46-53.*
6. *Əlizadə A. Alban Həvari Avtokefal Kilsəsi // Multikulturalizm, 2019, №3, s.71-82.*
7. *Əlizadə A. Azərbaycanda Xristianlıq: Keçmişdən bu günə. Bakı: "Elm və Təhsil", 2016, 376 s.*
8. *Əsədullayeva G. Qafqaz Albaniyasında din: Memarlıq abidələri // Dövlət və Din, 2023, №2(76), s.110-116.*
9. *Göyüşov R.B. Amaras-Ağoğlan. Bakı: "Elm", 1975, 98 s.*
10. *Xəlilov M. Albaniyanın tarixi, etno-mədəni hüdudları: qərb istiqaməti. Bakı: RS Poliqraf, 2017, 116 s.*
11. *Məlikov R. Albaniyada qədim inanclar və xristianlıq (V əsrin sonlarınadək) // Qafqaz Albaniyasının etno-mədəni irsi, 2023, № 4, s.161-169.*
12. *Müseyibli N., Axundova G. Qədim Albanların xristianlığa qədərki dini inamlarının tarixi kökləri // Qafqaz Albaniyasının etno-mədəni irsi, 2023, № 4, s.22-37.*
13. *Sarıyeva İ. Erməniləşdirilmiş türk-alban abidələri beynəlxalq siyahılarda / "Bakı xəbər" qəz., Bakı, 2017, 24 noyabr, s.15.*
14. *Turqutlu H. Qafqaz Albaniyasının tarixi və mədəni irsi insan hüquqları kontekstində / "Xalq cəbhəsi" qəz., Bakı, 2014, 11 iyun, s.5.*
15. *Uğurlu F. Qafqaz Albaniyası irsi: tariximizə yiyə duraq / "525-ci qəzet", Bakı, 2021, 24 fevral, s.10.*
16. *Vəlixanlı N. Ərəb Xilafəti və Azərbaycan. Bakı: Azərnəşr, 1993, 157 s.*
17. *Асланов Г.М. Мингечаурское погребение*

*с костяком, закованным в кандалы // Докл. АН Азерб. ССР,1953, т.IX, №3, с.245-249.*

*18. Ваидов Р.М. Археологические работы Мингечаура в 1950 г. // КСИИМК, вып. XVI, М.: АН СССР, 1952, с.91-100.*

*19. Ваидов Р.М. Фоменко В.П. Средневековый храм в Мингечауре / МКА, т.II, АН Азерб. ССР, 1951, с.86-102.*

*20. Геюшев Р.Б. О типологии ее закономерностях развития погребальных обрядов Кавказской Албании (IV-VII вв.) // МСПИПА 1972-1973 гг. в СССР. Баку, 1973, с.19-20.*

*21. Геюшев Р.Б. Христианство в Кавказской Албании (По данным археологии и письменных источников). Баку: "Элм", 1984, 191 с.*

*22. Латышев В.В. Известия древних писателей о Скифии и Кавказа // ВДИ, 1948, №3, с.220-321; 1949, №3, с.220-291; 1949, №4, с.230-244.*

*23. Мамедов Т.М. Албания и Атропатена по древнеармянским источникам (IV-VII вв.). Баку: "Элм", 1977, 147 с.*

*24. Мамедов Т.М. Кавказская Албания в IV-VII вв.: Автореф. дисс. докт. ист. наук. Баку, 1982, 44 с.*

*25. Очерки истории СССР. Первобытнообщинный строй и древнейшие государства на территории СССР (под ред. П.Н. Третьякова и А.А.Монгайта). Т.I. М.:АН СССР, 1956, 615 с.*

*26. Тревер К.В. Очерки по истории и культуры Кавказской Албании (IV в. до н.э. – VII в. н.э.). М.-Л.: АН СССР, 1959, 389 с.*

*27. Ямпольский З.И. Древние религии в Азербайджане. Баку: Азернешр, 1958, 25 с.*

*28. Ямпольский З.И. Древняя Албания в III-I вв. до н.э. Баку: АН Азерб. ССР, 1962, 381 с.*

*29. https://files.preslib.az/projects/remz/pdf/atr_din.pdf*

*30. https://1905.az/alban-qafqaz-kils%C9%99si-nin-I%C9%99gvi-1836-bu-nec%C9%99-olmusdu/*

**Aida AfiqTeymurova**
***The Institute of History and Ethnology named after A.A. Bakikhanov (ANAS) Ph.D. Candidate***

## THE SPREAD OF CHRISTIANITY AND RELIGIOUS CONVERSION PROCESSES IN CAUCASIAN ALBANIA

### SUMMARY

The article examines issues related to religious beliefs and religions that existed in Caucasian Albania. It should be noted that the population of Caucasian Albania initially believed in pagan and astral beliefs, and from the 1st century AD, Christianity began to spread in the country, though it never became the universal religion. Starting from the 8th century, Islam gained a dominant position in the region. The article explores the reasons for the spread of the aforementioned religious beliefs and the situation that arose as a result of the influence of these religions in the country. It analyzes the positive and negative aspects of the existence of various religious beliefs at different times and emphasizes the role of Islam, which remains the main religion in Azerbaijan, uniting different ethnic groups of the country.

**Keywords:** *Caucasian Albania, Christianity, Islam, paganism, religion, temple.*

**Аида Афиг Теймурова**
***Институт Истории и Этнологии имени А.А. Бакиханова (НАНА), докторант***

## РАСПРОСТРАНЕНИЕ ХРИСТИАНСТВА И ПРОЦЕССЫ РЕЛИГИОЗНОГО ПЕРЕХОДА В КАВКАЗСКОЙ АЛБАНИИ

### РЕЗЮМЕ

В статье рассматриваются вопросы, связанные с религиозными воззрениями и религиями, существовавшими в Кавказской Албании. Следует отметить, что население Кавказской Албании изначально веровало в языческие и астральные верования, а с I в. н.э. в стране стало распространяться христианство, которое так и не стало всеобщей религией. Начиная с VIII в. в регионе доминирующее положение занял ислам. В статье рассматриваются причины распространения вышеуказанных религиозных воззрений и ситуация, которая возникла в результате влияния этих религий в стране. Анализируются положительные и отрицательные стороны существования различных религиозных воззрений в разное время; подчеркивается роль ислама, который до сих пор является главной религией в Азербайджане, объединяющей разные этносы страны.

**Ключевые слова:** *Кавказская Албания, христианство, ислам, язычество, религия, храм.*

*Rəyçi: Tarix elmləri doktoru, professor Qabil Əliyev*
*Məqalə redaksiyaya daxil olub: 11.03.2026*
*Çapa qəbul olunub: 12.04.2026*

*The date of the admission of the article to the editorial office: 11.03.2026*
*Accepted for publication: 12.04.2026*